**UOT 398:801.6; 398:82.0; 801.8**
https://doi.org/10.59849/2218-4783.2026.2.208

# NAXÇIVAN FOLKLORU VƏ RƏQƏMSAL FOLKLOR: NƏZƏRI YANAŞMA

# NAKHCHIVAN FOLKLORE AND DIGITAL FOLKLORE: A THEORETICAL APPROACH

**Çinarə RZAYEVA***

**XÜLASƏ**

Bu məqalədə Naxçıvan folkloru ilə rəqəmsal folklor arasındakı əlaqə nəzəri baxımdan araşdırılır. Tədqiqatda folklorun ənənəvi mühitdən rəqəmsal məkana keçidi və bu prosesin onun formalaşmasına, qorunmasına və yayılmasına təsiri təhlil olunur. Xüsusilə sosial media platformalarında ənənəvi folklor nümunələrinin müasir formada təqdim edilməsi və gənclərin yaradıcılığı vasitəsilə yenidən şərh olunması diqqət mərkəzindədir.

Eyni zamanda internet folklorunun sürətli yayılma xüsusiyyətləri, kollektiv təsnifat üsulları və rəqəmsal mühitin folklorun transformasiyasındakı rolu nəzərdən keçirilir. Bu prosesdə istifadəçilərin aktiv iştirakı folklor nümunələrinin daha geniş auditoriyaya çatmasına şərait yaradır. Rəqəmsal platformalar folklorun interaktiv şəkildə paylaşılmasını və yeni məzmunların yaranmasını sürətləndirir. Məqalədə Naxçıvan folklorunun rəqəmsal məkanda necə təqdim olunduğu, yeni formada necə yaşadıldığı və bu prosesdə orijinallığın qorunması məsələsi də vurğulanır.

Nəticə etibarilə göstərilir ki, folklor yalnız keçmişi əks etdirən yaddaş forması deyil, həm də müasir dövrdə yenidən yaradılan və dəyişən bir mədəni sistemdir. Beləliklə, Naxçıvan folklorunun rəqəmsal dövrdə də yaşadığı və yeni nəsillərə fərqli formalarda ötürüldüyü qənaətinə gəlinir.

**Açar sözlər:** *Naxçıvan, rəqəmsal folklor, sosial media, internet folkloru, mədəni kimlik, şifahi ənənə.*

**ABSTRACT**

This article theoretically considers the relationship between Nakhchivan folklore and digital folklore. The study analyzes the transition of folklore from the traditional environment to the digital space and the impact of this process on its formation, preservation, and dissemination. Particular focus is placed on the presentation of traditional folklore examples in modern formats on social media platforms and their reinterpretation through the creativity of the youth.

At the same time, the rapid dissemination characteristics of internet folklore, collective classification methods, and the role of the digital environment in the transformation of folklore are reviewed. The active participation of users in this process enables folklore samples to reach a wider audience. Digital platforms accelerate the interactive sharing of folklore and the creation of new content. The article also emphasizes how Nakhchivan folklore is presented in the digital space, how it is kept alive in new forms, and the issue of preserving authenticity during this process.

In conclusion, it is demonstrated that folklore is not only a form of memory reflecting the past but also a cultural system that is recreated and changed in the modern era. Thus, it is concluded that Nakhchivan folklore continues to live in the digital age and is transmitted to new generations in different forms.

**Keywords:** *Nakhchivan, digital folklore, social media, internet folklore, cultural identity, oral tradition.*

## GİRİŞ

Hər bir xalqın folkloru onun mənəvi kimliyi, söz sərvəti, keçmişi, həyata baxışı və yaşayış tərzi haqqında məlumat verir. Bu baxımdan folklor hər bir xalqın mənəvi irsini, dünyagörüşünü və həyat təcrübəsini əks etdirən qiymətli bir xəzinədir. O, yalnız keçmişi yaşadan material deyil, həm də müasir dövrdə xalqın mədəni həyatının və düşüncə tərzinin göstəricisidir.

*AMEA Naxçıvan Bölməsi, e-mail: cinarerzayeva@yahoo.com.tr
ORCID: 0000-0003-0655-9342

Son illərdə texnologiyanın inkişafı ilə folklorun toplanması və qorunması yeni mərhələyə qədəm qoymuşdur. "Müasir dünyanın hər sahəsində effektiv istifadəsi ilə köklü dəyişikliklərə səbəb olan internet folklorun tədqiqat sahələrini də genişləndirib və zənginləşdirmişdir" [Bars, 2018: 165]. Bu proses rəqəmsal platformalar vasitəsilə daha geniş imkanlar qazanmışdır. Sosial şəbəkələr, onlayn arxivlər və elektron bazalar folklor nümunələrinin daha sürətli toplanmasına və daha geniş auditoriyaya çatdırılmasına imkan verir. Bu isə onu göstərir ki, texnologiyanın inkişafı folklor nümunələrinin "…əvvəlki dövrlərdən daha sürətli və effektli yayılmasına, həmçinin çoxsaylı yeni forma və modellərinin ortaya çıxmasına şərait yaradır" [Quliyev, 2018: 23].

Naxçıvan folkloru isə zənginliyi və özünəməxsusluğu ilə seçilərək bu ümumi prosesdə xüsusi yer tutur. Burada yaranan dastanlar, nağıllar, deyimlər, atalar sözləri, məsəllər, bayatlar və digər janrlar xalqın mənəvi həyatını əks etdirir. Məlumdur ki, bu folklor janrları yalnız keçmişi qoruyub saxlamır, eyni zamanda hər bir cəmiyyətin özünü tanıma və kimliyini ifadə etmə yollarını da müəyyən edir. Buna görə də folklor həm mədəni kimliyin davamlılığını təmin edir, həm də nəsildən-nəslə, əsirdən-əsirə ötürülərək kollektiv yaddaşın qorunmasında mühüm rol oynayır. Bu fikir Jan Vansina tərəfindən də təsdiqlənir: "Ağızdan-ağıza ötürülən ənənə tarixi və kollektiv yaddaş üçün əsas vasitədir; folklor bu prosesin əsas hissəsini təşkil edir" [Vansina, 1985]. Müasir dövrdə rəqəmsal mühit isə bu nümunələrin qorunmasını, təhlilini və yayılmasını asanlaşdıraraq onların həm indi, həm də gələcək nəsillər üçün əhəmiyyətini artırır.

Bu tədqiqatın məqsədi Naxçıvan folklorunun xüsusiyyətlərini və rəqəmsal mühitdə formalaşan prosesləri nəzəri baxımdan araşdırmaq, onların mənşəyini və xalq həyatındakı rolunu müəyyənləşdirməkdir.

**RƏQƏMSAL MÜHİT VƏ FOLKLOR**

Rəqəmsal mühit folklorun toplanması, qorunması və yayılmasında yeni imkanlar açır. Sosial şəbəkələr, onlayn platformalar və elektron arxivlər folklor nümunələrinin daha geniş auditoriyaya çatdırılmasına şərait yaradır. Eyni zamanda, bu mühit folklorun həm yerli, həm də qlobal səviyyədə təhlilinə də geniş yol açır.

Rəqəmsal platformalarda yayılan deyimlər, qısa şifahi ifadələr və bayatlar xalqın gündəlik həyatında baş verən yenilikləri əks etdirir. Bu yaranan yeni nümunələr həm də folklorun müasir həyatla necə əlaqəli olduğunu göstərir. Yeni nümunələr onlayn mühitdə yayıldıqca, xalqın mənəvi həyatında təsirini artırır və folklorun inkişafda olduğunu göstərir. Bu da onu deməyə əsas verir ki, folklor sabit deyil, zamanın tələbinə uyğun olaraq daim hərəkətdə və yenilənməkdədir. Məsələn, bu prosesin konkret təzahürünü aşağıdakı nümunədə daha aydın görmək mümkündür: "Bir dəfə yaşa, trenddə qal", "Statusu sevəndir", "Pul kimdə, söz onda", "Pul alaram ayıbdı, almaram hayıfdı", "Az iş çox reklam", "Arsızın arı, pulsuzun pulu sözdə çox olar" və s.

Haxışta mənim olsun,
İpək tumanım olsun.
Geyim gedim Dubaya,
Dubayda toyum olsun.

Əzizinəm tələbə,
Gəl, sən belə eləmə.
Vaxtında dərs oxu, ki
Semestrdə mələmə.

Gəlir yaşma,
Duxun var, qaçma.

Bu nümunə rəqəmsal mühitdə folklorun necə yenidən formalaşdığını və müasir istifadəçilər

tərəfindən necə təqdim edildiyini nümayiş etdirir. Beləliklə, müasir folklor daha çox sosial münasibətləri, maddi dəyərləri və gündəlik həyat reallıqlarını əks etdirən qısa və ritmik ifadələr şəklində formalaşaraq bu proseslə sıx əlaqə yaradır.

Klassik folklor dildən-dilə keçərək, müasir nümunələr isə bundan fərqli olaraq "ekrandan-ekrana" ötürülərək yaşadılır. Bu sürətli proses ənənəvi folklorun illər, bəzən əsrlər boyu keçdiyi yolu qısa zaman kəsiyinə, bir neçə saata sığdıra bilir. Günümüzdə internet mühiti artıq təkcə ötürücü vasitə kimi deyil, həm də yeni folklor janrlarının formalaşdığı geniş bir meydan kimi çıxış edir. Çünki "rəqəmsal media folklorun ötürülmə formasını dəyişib, yeni nəsillərə ənənəvi nağılları yenidən şərh etməyə və paylaşmağa imkan verir" [Shifman, 2014: 13]. Limor Şifman bu fikri ilə günümüzün reallığını çox dəqiq əks etdirə bilir. Çünki folklor artıq sadəcə nənələrin "nağıl sandığı" deyil, gənclərin "smartfon ekranıdır".

Bu baxımdan, rəqəmsallaşan dünyada Bakı gəncləri arasında, xüsusilə TikTok, Instagram, Facebook kimi platformalarda yayılan folklor məzmunlarının daha müasir formada təqdim olunduğunu müşahidə edirik. Bu platformalar bir növ "rəqəmsal meydan" rolunu oynayır. Belə ki, burada qədim bayatılar müasir ritmlərə çevrilir, klassik lətifələr yenidən canlanır və s. Beləliklə, gənclər minillik mənəvi mirası götürüb rəqəmsal dövrün estetikasına uyğunlaşdırırlar. Gedən bu proseslər folklorun daim nəfəs alan bir varlıq olduğunu bir daha göstərir. Ənənəvi mühitlə rəqəmsal platformalar arasındakı bu köklü fərqləri aşağıdakı müqayisəli cədvəldə daha aydın görmək olar:

| **Xüsusiyyət** | **Ənənəvi Mühit** | **Rəqəmsal Mühit** |
|---|---|---|
| **Yayılma sürəti** | Məkanla məhdud (yavaş) | Qlobal və anlıq (sürətli) |
| **Müəlliflik** | Anonim | Qismən fərdiləşmiş (Remiks mədəniyyəti) |
| **Variantlılıq** | Ağızdan-ağıza (dəyişən) | Rəqəmsal kopiyalanma (sabit, lakin modifikasiyaya açıq) |
| **İştirak** | Kollektiv iştirak | Virtual interaktivlik |

Cədvəldən göründüyü kimi, rəqəmsal mühitdə folklorun iştirak forması ənənəvi kollektivlikdən virtual interaktivliyə transformasiya olunmuşdur. Məhz bu virtual meydanlarda qədim mətnlərin yenidən şərh olunması "rəqəmsal folklor" anlayışının hüdudlarını genişləndirərək onun yeni sahələrdə möhkəmlənməsinə zəmin yaradır. Bu istiqamətdə aparılan tədqiqatlarda virtual mühitdə folklorun müxtəlif terminlərlə ifadə olunması da diqqət çəkir. Virtual dünyada aparılan folklor tədqiqatlarına "internet folkloru, şəbəkə folkloru, virtual folklor, internetlor, netlor, kompüter folkloru, virtual folklor, kiberlor, e-folklor, rəqəmsal folklor" [Alekseyevskiy, 2015: 202-203] kimi müxtəlif terminlə ifadə edilir.

Günümüzdə gənclər arasında ənənəvi nağılların, əfsanə və miflərin qısa video formatında təqdimatı sosial mediada yeni və kütləvi trendə çevrilmişdir. Belə ki, sosial media platformalarında, xüsusilə TikTok, Instagram və YouTube kimi müasir kommunikasiya vasitələrində folklor örnəkləri sadəcə ötürülmür, eyni zamanda istifadəçilərin, xüsusilə gənclərin yaradıcılığı vasitəsilə yenidən formalaşdırılır. Bu baxımdan, sosial şəbəkələr, xüsusilə TikTok istifadəçilərin müxtəlif hekayə və ifadə formaları vasitəsilə ortaq təcrübələri paylaşdığı və mədəni məna yaratdığı bir mühit kimi çıxış edir [Hall, 2023: 52-54].

Bu sahədə tədqiqat aparan Oğur, "sosial medianın kollektiv etiketləmə, yəni "folksonomi" funksiyasını vurğulayaraq göstərir ki, bu mexanizm folklor elementlərinin rəqəmsal məkanda kollektiv şəkildə qəbul edilməsi və paylaşılmasına imkan yaradır" [Oğur, 2024: 80-96]. Bu yanaşma Patterson tərəfindən də dəstəklənir; müəllif qeyd edir ki, "folksonomiyaya yaxın olan hipermətnlilik, klassik mənada mətni kitab səhifələrindən çıxarır və ekrana çıxarır, oxucuya təqdim edir və hər dəfə istirahət hissi verir" [Patterson, 2015: 67].

Bütün bu araşdırmalar göstərir ki, folklor örnəkləri rəqəmsal məkanda kollektiv şəkildə formalaşır və yayımlanır, həmçinin müasir cəmiyyətlə qarşılıqlı əlaqə yaradır. Beləliklə, sosial media platformalarında paylaşılan, yenilənən və dəyişən mədəni məzmun ənənəvi folklorun ruhunu müasir dövrün tələblərinə uyğunlaşdıraraq daha geniş auditoriyaya təqdim edir. Yuxarıda qeyd olunan fikirlər bir daha təsdiqləyir ki, sosial media folklorun müasir formalarının inkişafında və təkamülündə mühüm rol oynayır. Çünki klassik ənənəvi folklor dildən-dilə keçərkən müəyyən bir coğrafi sərhədlə məhdudlaşırdısa, rəqəmsal nümunələr isə bundan fərqli olaraq qısa zaman dilimində, hətta saniyələr içində qitələri aşaraq dünyanı bir nöqtəyə sığdırır**.** Burada daha çox kollektiv müəlliflik prinsipi özünü göstərir. Rəqəmsal yayılan yeni folklor örnəklərinə, yəni bir şəxsin paylaşdığı ironik ifadə və fikrə minlərlə insan tərəfindən münasibət bildirilərək qısa zaman içində dəyişdirilir və yeni variantlar yaranır. Bu, folklorun ən əsas xüsusiyyəti olan variantlılıq prinsipinin qısa zamanda yaranmasının birbaşa sübutudur.

“Folklor xalqın heç vaxt susmayan səsidir” və bu gün həmin səs smartfonların ekranlarından gəlir. Hamıya məlumdur ki, əvvəllər bir lətifənin, bayatının və digər folklor janrlarının kənddən-kəndə yayılması günlər, hətta aylar çəkirdisə, bu gün həmin nümunələr saniyələr ərzində internet vasitəsilə milyonlarla insana çatır. Məhz bu sürətli yayılma sayəsində interneti xalq dili ilə desək, müasir dövrün “təndirbaşı” və ya “kənd meydanı” kimi adlandırmaq olar. Beləliklə, “sözün qanadı yoxdur, amma uçur” deyimi də müasir dövrdə internet və smartfonların təsiri ilə özünün ən yüksək zirvəsinə çatmışdır. Folklor isə öz köklərindən qopmadan, sadəcə formasını dəyişərək və yeniliklərlə səsləşərək gələcəyə doğru “ekranlar üzərindən” sürətlə irəliləyir. Çünki internet artıq sadəcə texnoloji bir şəbəkə deyil, insanların mədəni həyatında çoxşaxəli funksiyaları da yerinə yetirən virtual bir məkandır. Aşkın Balcının qeyd etdiyi kimi, bu rəqəmsal platformalar fərdlər üçün “məlumat əldə etmək, motivasiya etmək, müzakirə üçün platforma yaratmaq, ünsiyyət qurmaq, koordinasiya etmək, təhsilə töhfə vermək, mədəni inkişafa və dəyişikliklərə təsir göstərmək, xoş vaxt keçirmək və insanları bir araya gətirmək” [Aşkın Balcı, 2017: 62] kimi həyati əhəmiyyətli rolları öz üzərinə götürür.

Sadalanan bu müsbət məziyyətlərlə yanaşı, rəqəmsal mühit Naxçıvan folkloru üçün bəzi ciddi risklər və “gizli tələlər” də yaradır. Bu məqamda “uydurma folklor” (fakelore) anlayışı bütün təhlükəsi ilə ön plana çıxır. Bəzən Naxçıvanın qədim tarixi və ya zəngin folkloru haqqında heç bir elmi əsası olmayan məlumatlar onlayn platformalarda sürətlə yayılır və bir müddət sonra “həqiqət” kimi qəbul olunmağa başlayır. Bu, tariximizin rəqəmsal məkanda təhrif olunması deməkdir.

Məşhur nəzəriyyəçi Riçard Dorsonun da qeyd etdiyi kimi: “Kommersiya məqsədləri üçün süni şəkildə yaradılan “folklor” həqiqi xalq yaradıcılığını sıxışdıra bilər”. Bu gün bəzi sosial media istifadəçiləri sırf baxış sayı toplamaq və ya diqqət çəkmək üçün Naxçıvanın qədim adətlərini öz kontekstindən qoparır, onları mahiyyətindən uzaqlaşdıraraq ucuz bir “şou” elementinə çevirirlər. Məsələn, müqəddəs sayılan bir inancın və ya ciddi bir mərasimin gülünc bir “vayn” mövzusuna çevrilməsi folklorun mənəvi sütunlarını zədələyir.

Biz bu rəqəmsal dalğanın içində həqiqi ilə saxtanı bir-birindən ayırmağı bacarmalıyıq. Naxçıvan folklorunun saflığını qorumaq üçün rəqəmsal məkandakı bu “mədəni çirklənməyə” qarşı hamılıqla diqqətli olmalıyıq. Əks halda, gələcək nəsillər əsl xalq ruhunu deyil, rəqəmsal mühitin diktə etdiyi həmin o süni və uydurma nümunələri öz mirası kimi tanıyacaqlar. Odur ki, milli dəyərlərimizin onlayn mühitdə sadəcə bir “əyləncə vasitəsi” kimi istehlak olunmasına və ruhunun sönməsinə qətiyyən yol verməməliyik.

## NƏTİCƏ

Rəqəmsal mühit folklor nümunələrinin qorunmasını, təhlilini və yayılmasını asanlaşdıraraq onların müasir dövrdə də əhəmiyyətini qoruyur. Folklor xalqın mənəvi həyatını, sosial davranışlarını və mədəni dəyərlərini dərindən anlamağa imkan verir. Onun tədqiqi həm tarixi davamlılığı, həm də müasir həyatla əlaqəsini göstərir. Naxçıvan folkloru rəqəmsal mühitdə özünün “ikinci həyatını” ya-

şayır. Bu proses qaçılmazdır və qorxulu deyil. Əsas məsələ, rəqəmsal texnologiyaların təqdim etdiyi imkanlardan istifadə edərək Naxçıvanın minillik ruhunu virtual məkanda itirmədən, onu yeni nəslin anlaya biləcəyi dilə (rəqəmsal dilə) tərcümə etməkdir.

Araşdırma göstərir ki, folklor sadəcə "keçmişin qalığı" deyil, o həmçinin "gələcəyin rəqəmsal kodu"dur. Çünki texnologiya folkloru öldürmür, əksinə, ona sürət və yeni nəfəs verir.

## ƏDƏBİYYAT

Alekseyevskiy, M.D. (2015). Folklorda İnternet Mi, İnternet Folkloru Mu? (Çağdaş Folkloristik ve Sanal Gerçeklik) (çev. Atilla Bağcı). *Uluslararası Türk Dünyası Kültür Araştırmaları Dergisi*, 1(1), 199-219.

Aşkın Balcı, H. (2017). İnternetteki Metinlerin Özellikleri ve Metindilbilim. *Turkish Studies – International Periodical for the Languages, Literature and History of Turkish or Turkic*, 12/5, 57-74.

Bars, M.E. (2018). İnternet folkloru: netlore. *Türük Uluslararası Dil Edebiyat ve Halk Bilimi Araştırmaları Dergisi*, 6(15), 160-179. https://izlik.org/JA69FX39MH

Hewlett-Hall, J. (2023). Folklore, Storytelling and Coping with the Internet on TikTok. *Teaching anthropology*, v. 12, 1, 48-60. https://doi.org/10.22582/ta.v12i1.680

Quliyev, H. (2018). *Virtual mühitdə folklor: ənənə və kommunikasiya*. Sabah.

Oğur, Ü. (2024). İnternet folklorunun oluşumunda folksonominin rolü üzerine bir inceleme. *TEKE Uluslararası Türkçe Edebiyat Kültür Eğitim Dergisi*, 13(1), 80-96. https://doi.org/10.7884/teke. 1334334

Patterson, N.G. (2015). Hiper metin ve değişen okuyucu rolleri (Çev. Şevkı Işıklı ve Gamze Aksel). *Online Academic Journal of Information Technology*, 6(20), 65-74. https://doi.org/10.5824/1309-1581.2015.3.005.x

Shifman, L. (2014) Memes in Digital Culture. *The MIT Press,* 14(7) https://doi.org/10.7551/ mitpress/ 9429.001.0001

Vansina, J. (1985). *Oral Tradition as History*. University of Wisconsin Press.

*(AMEA-nın müxbir üzvü Əbülfəz Quliyev tərəfindən təqdim edilmişdir)*

**Daxilolma tarixi: İlkin variant 01.06.2026**
**Son variant 10.06.2026**